**Kriteriya II.5: Nailiyyətlərin Tanınması-**

**Qiymətləndirmə aparılacaq 3 aspekt**

**1.İnstitusional aspekt:**

- **Başqa təsisatlardan və ya akademik olmayan mühitdən əldə edilən nailiyyətlərin tanınması üçün qaydalar, strukturlar və vəzifələr gözlənildiyi kimi işləyirmi?**

  Qaydalar, strukturlar və vəzifələr
  Auditoriyadan kənar işlər üzrə şöbənin əsasnaməsinə əsasən işləyir.
  Şöbənin əsasnaməsinin linki aşağıda yerləşdirilmişdir.
  **file:///C:/Users/Elnure/Desktop/Auditoriyuadan%20k/AK%C4%B0%20%20%C5%9E%C3%B6b%C9%99nin%20%20%C6%8FSASNAM%C6%8FS%C4%B0.pdf**

  - Əldə edilən nailiyyətlərin tanınması üçün mütəmadi olaraq universitetin saytında və sosial şəbəkələrində  məlumatlar paylaşılır. Qərbi Kaspi Universitetinin nailiyyətləri ilə bağlı xəbər lentlərinin linkləri aşağıda yerləşdirilmişdir:

  - Qərbi Kaspi Universitetinin voleybol komandası Vətən Müharibəsi şəhidi Murad Məmmədovun xatirəsinə həsr edilmiş tələbə qızlar arasında Nərimanov rayonu üzrə keçirilən voleybol turnirində iştirak edib. 8 komandanın iştirak etdiyi turnirdə Qərbi Kaspi Universitetinin qızlardan ibarət komandası II yerə layiq görülüb.

    ( https://www.wcu.edu.az/az/news/voleybol-komandamiz-ii-oldu)

  - Universitetimizin müəllim və tələbələri Azərbaycan Respublikası Gənclər Fondunun "İdeyanı Reallaşdır 2022" Qrant Müsabiqəsində "Bir vərəq bir yarpaq" adlı layihə ilə qalib olublar.

    ( https://www.wcu.edu.az/az/news/muellim-ve-telebelerimiz-qalib-olublar)

- Komandamız dünyanın ən reytinqli hackathonunun Azərbaycan üzrə qalibi olub.( https://www.wcu.edu.az/az/news/komandamiz-dunyanin-en-reytinqli-hackathonunun-azerbaycan-uz)

- Qərbi Kaspi Universitetinin basketbol komandası Tələbə Basketbol Liqasının seçmə oyunlarında çıxışını uğurla davam etdirir.
Seçmə oyunlarında artıq sayca ikinci qələbəsini qazanan komandamızın budəfəki oyunu Bakı Ali Neft Məktəbinin basketbol komandası ilə olub və oyun Qərbi Kaspi Universiteti tələbələrinin 50:34 hesablı qələbəsi ilə başa çatıb.( https://www.wcu.edu.az/az/news/basketbol-komandamiz-novbeti-qelbesini-qazanib)

- Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə Memarlıq, İnşaat və Dizayn İctimai Birliyi tərəfindən icra olunan "Dövlət, Universitet və QHT əməkdaşlığı" çərçivəsində "Sosial sahibkarlığın və müəssisələrin təşkilinin gənclər arasında təbliği üzrə təşəbbüslər" adlı layihə çərçivəsində keçirilən təlimlərdə Qərbi Kaspi Universitetinin Dizayn Məktəbinin tələbələri fəal iştirak ediblər.( https://www.wcu.edu.az/az/news/telebelerimiz-telimlerde-ishtirak-edibler)

MDB, PAA və DİMBİ Bakı filialı tərəfindən ali təhsil müəssisələrinin tələbə-gəncləri arasında "Dünya ölkələrinin seçki sistemləri" III Beynəlxalq tələbə internet-olimpiadası keçirilib. Qərbi Kaspi Universitetinin Politologiya ixtisasının IV kurs tələbələri - Səfər Məmmədov I yerə və Fateh Həsənzadə isə III yerə layiq görülüblər. (https://www.wcu.edu.az/az/news/telebelerimiz-qalibler-sirasinda)

- Baş nazirin müavini və elm və təhsil naziri tələbələrimizin layihəsi ilə tanış olublar.( https://www.wcu.edu.az/az/news/bash-nazirin-muavini-ve-elm-ve-tehsil-naziri-telebelerimizin)

- Qərbi Kaspi Universitetinin komandası "Product owner marafonu"nda ("Məhsul sahibi marafonu") qalib olub.( https://www.wcu.edu.az/az/news/komandamiz-qalib-oldu)

- Qərbi Kaspi Universitetinin tələbələrindən ibarət komanda dünyanın ən reytinqli hackathonunun Azərbaycan üzrə qalibi olub.

  ( https://www.wcu.edu.az/az/news/qalib-telebelerimiz-mukafatlandirilib)
- Qərbi Kaspi Universitetinin 4 komandası "Steam Azərbaycan-2022"nin qalibi olub.( https://www.wcu.edu.az/az/news/qerbi-kaspi-universitetinin-komandasi-steam-azerbaycannin-qa)

- Koreyanın Busan şəhərində "BUSAN" Beynəlxalq Festivalı keçirilib. Dünyanın 42 ölkəsindən 500-dən çox rəssamın iştirakı ilə baş tutan bu beynəlxalq sərgidə Azərbaycanı 10 rəssam təmsil edib.
  Sərgidən sonra bəzi tələbə və müəllimlərimiz xüsusi sertifikatlarla təltif olunub. https://www.wcu.edu.az/az/news/muellim-ve-telebelerimiz-beynelxalq-festivalda-ishtirak-edib)

- Bakının Nərimanov rayonunda yerləşən Atatürk parkında IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, eləcə də yerli icra hakimiyyəti orqanları və bələdiyyələrin birgə əməkdaşlığı ilə həyata keçirilən ağacların qeydiyyatı və nömrələnməsi layihəsinə start verilib. Tədbir zamanı ekoloji aksiyalarda fəal iştirak edən tələbələr, o cümlədən Qərbi Kaspi Universitetinin tələbəsi Təbii Sərvətlər və Ekologiya İşçiləri

Həmkarlar İttifaqı Komitəsi tərəfindən Fəxri Fərman və mükafatla təltif olunub.( https://www.wcu.edu.az/az/news/telebemiz-teltif-olunub)

- Qərbi Kaspi Universitetində "Gənclər Günü"nə həsr olunmuş universitetdaxili Şahmat turniri keçirilib.
  Turnirin yekunlarına əsasən Yüksək Texnologiyalar və İnnovativ Mühəndislik Məktəbinin 2-ci kurs tələbəsi Lalə Mirzəyeva birinci, Siyasi və İctimai Elmlər Məktəbinin 1-ci kurs maqistrantı Ayşən Quliyeva ikinci, Dizayn və Memarlıq Məktəbinin 2-ci kurs tələbəsi Ruslan Quliyev üçüncü yerə layiq görülüblər.
  ( https://www.wcu.edu.az/az/news/universitetdaxili-shahmat-turniri-sona-chati)

- Qərbi Kaspi Universitetində "Gənclər Günü"nə həsr olunmuş Stolüstü tennis üzrə universitetdaxili turnir keçirilib.
  Turnirdə universitetin müəllimləri, maqistratura və bakalavr səviyyələrində təhsil alan tələbələr iştirak ediblər.
  ( https://www.wcu.edu.az/az/news/stolustu-tennis-turnirinin-qalibleri-melum-oldu)

- Qərbi Kaspi Universitetinin tələbələri "İnsan Hüquqlarının Tədrisi" mövzusunda təlim kursunda iştirak ediblər.
  Təlimlərdə Qərbi Kaspi Universitetinin Politologiya və Beynəlxalq Münasibətlər kafedrasının müəllimi Məhəmməd Məhərrəmov, Psixologiya fakultəsinin Bakalavr tələbəsi Bayram Bayramov, Sosial iş fakultəsinin bakalavr tələbəsi Cəlalət Hüseynova və Politologiya fakultəsinin Bakalavr tələbəsi Kamran Cəlilov iştirak edib və Sertifikatlarla təltif olunublar.
  ( https://www.wcu.edu.az/az/news/telebelerimiz-bmtnin-telimlerinde-ishtirak-edibler)

- Azərbaycan Gənclər Günü münasibəti ilə mükafatlandırılıb.Tədbirdə universitetimizin debat klubu da il ərzindəki fəaliyyətinə görə fərqlənən klublardan biri olaraq mükafatlandırılıb. Mükafat "Vətəndaş

Cəmiyyətində Debat" İctimai Birliyinin sədri Ülviyyə Axundova tərəfindən universitetimizin debat klubu sədri Tural Abduləzizova təqdim olunub.( https://www.wcu.edu.az/az/news/universitetimizin-debat-klubu-mukafatlandirilib)

- Universitetimizin “Dizayn” Məktəbinin tələbələri "İnternational Coaching Education Academia" MMC-nin təşkil etdiyi "Əsas Kouçinq Təlimi"ndə iştirak edib.
  Təlimi uğurla başa vuran 2-ci kurs tələbələri - Nərmin Allahverdiyeva və Ruslan Quliyev ABŞ-ın İnternational Coaching Education programı tərəfindən təsdiq olunmuş beynəlxalq sertifikata layiq görülüblər.( https://www.wcu.edu.az/az/news/telebelerimiz-beynelxalq-sertifikata-layiq-gorulubler)

- "Şuşa İli" çərçivəsində Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi ilə "Discovering Shusha with International Students in Azerbaijan" layihəsi çərçivəsində Erasmus Tələbə Şəbəkəsi Azərbaycan “Shusha Cultural Night” adlı tədbir təşkil olunub.
  Universitetimizin doktorantura pilləsinin "Beynəlxalq münasibətlər" ixtisasında təhsil alan Tomilayo Oyebola Mubarak Aroyehun inşa musabiqəsinin qalibi seçilib. Tələbəmiz sertifikat və hədiyyə ilə təltif olunub.

(https://www.wcu.edu.az/az/news/ecnebi-telebemiz-qalib-olub)

- Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Innovasiya Mərkəzinin təşkilatçılığı ilə aqrar sahədə innovasiyaların təbliği və təşviqi məqsədilə Zaqatala rayonunda yerləşən Zaqatala Fındıq Emalı Zavodunun ərazisində növbəti Aqrar İnnovasiya Festival keçirilib. Qərbi Kaspi Universitetinin bir qrup tələbələri Təbiət Elmləri kafedrasının müəllimi, biologiya üzrə fəlsəfə doktoru Ayaz Məmmədovun mentorluğu ilə müxtəlif layihələrlə (“Bioqaz”, Kənd təsərrüfatı məhsullarının elektron satış portalı və “Rəngli ipəkqurdu”) Festivalda iştrak edirlər.

( https://www.wcu.edu.az/az/news/telebelerimiz-festivalda-layhelerini-numayish-etdiribler)

- Universitetimizin "Techica" komandası (komanda üzvləri: Aytac Əsgərli, Leyla Tağıyeva, Rihat Məhərrəmov, komandanın mentoru: Osman Hacılı) “Teknofest” Aerokosmik və Texnologiya Festivalında iştirak edir. Festival Türkiyənin İstanbul şəhərində keçirilir və 27 aprel-1 may tarixlərini əhatə edəcək.( https://www.wcu.edu.az/az/news/qerbi-kaspi-universitetinin-komandasi-istanbulda-kechirilen-)

- Qərbi Kaspi Universitetinin komandaları XVI Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - “Caspian Agro” sərgisində iştirak edir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qərbi Kaspi Universitetinin stendi ilə də tanış olublar.

(https://www.wcu.edu.az/az/news/telebelerimiz-caspian-agro-sergisinde-ishtirak-edir)

- Tələbələrimiz 4-cü ABB “Hackathon Startup Challeng” müsabiqəsində növbəti mərhələyə keçib.(https://www.wcu.edu.az/az/news/telebelerimiz-cu-abb-hackathon-startup-challeng-musabiqesind)

- Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.
  Tədbirdə Qərbi Kaspi Universitetinin tələbələri universitetin Texnoparkında işlədikləri bir neçə layihəni (BioMetan, RGB Silkworm, Techica Stone) nümayiş etdiriblər.
  ( https://www.wcu.edu.az/az/news/qerbi-kaspi-universitetinin-telebeleri-oz-layihelerini-numay)

- Tələbələrimiz çimərlik zonalarında təmizlik aksiyasında topladıqları tullantılardan universitetin Texnoparkında müxtəlif əl işləri hazırlayıblar. (https://www.wcu.edu.az/az/news/telebelerimiz-tullantilardan-el-ishleri-hazirladi)

- Qərbi Kaspi Universitetinin Yüksək Texnologiyalar və İnnovativ Mühəndislik Məktəbinin 4-cü kurs tələbəsi Teymur Əlisətov Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən qaçış yarışında 3-cü yerə layiq görülüb. Yarışda Gənclər və İdman naziri Fərid Qayıbov da iştirak edib.( https://www.wcu.edu.az/az/news/telebemiz-mukafatchilar-sirasinda)

- Qərbi Kaspi Universitetində standartların tələblərinə əsasən inteqrasiya edilmiş edarəetmə sistemlərinin qurulması və sertifikatlaşdırılması üçün təşkil olunan audit sona çatıb və idarəetmə sistemləri üzrə Qərbi Kaspi Universiteti aşağıdakı beynəlxalq sertifikatlarla təltif edilib:

(https://www.wcu.edu.az/az/news/universitetimiz-beynelxalq-keyfiyyet-standartlari-sertifikat)

- NASA Beynəlxalq Kosmik Tətbiqlər Müsabiqəsi NASA və Kosmik Agentliyin açıq məlumatlarından istifadə edərək, Yer üzündə və kosmosda qarşılaşdığımız problemlərə həll yolları yaratmaq üçün dünyanın hər yerindən kodlayıcıların, alimlərin, dizaynerlərin, hekayəçilərin, istehsalçıların, texnoloqların və yenilikçilərin bir araya gəldiyi hakatondur.
  705 iştirakçı, 145 komanda arasından universitetimizin Yüksək Texnologiyalar fakültəsinin III kurs kompüter mühəndisliyi tələbələri “AgoraTech” komandası olaraq finala vəsiqə qazanan 23 komandadan biridir.
  ( https://www.wcu.edu.az/az/news/komandamiz-nasa-beynelxalq-kosmik-tetbiqler-musabiqesinde-fi)

- Qərbi Kaspi Universiteti “Yüksək Texnologiyalar və İnnovativ Mühəndislik” məktəbinin İnformasiya Texnologiyaları ixtisası üzrə təhsil alan tələbələri İnnoland və STEAM İnnovasiya Mərkəzində “Women in Tech” Azərbaycan, İsveç Kral Texnologiya İnstitutu və İsveçin Azərbaycandakı səfirliyi tərəfindən təşkil olunmuş Tekla Festivalında iştirak ediblər.( https://www.wcu.edu.az/az/news/telebelerimiz-tekla-festivalinda-ishtirak-edibler)

- Qərbi Kaspi Universitetinin tələbələrindən ibarət 4 komanda “Paşa Bank”ın tərəfdaşlığı və “SUP.VC” şirkətinin təşkilatçılığı ilə keçirilən “Məhsul sahibi marafonu”nda iştirak edirdi. Komandalarımızdan 2-si final mərhələsinə vəsiqə qazanıb.
  Marafonda birinci yerə layiq görülən komandaya 2500 AZN dəyərində mükafat təqdim olunacaq.
  Xatırladaq ki, ötən il Qərbi kaspi Universitetinin komandası bu yarışın qalibi olub.
  (https://www.wcu.edu.az/az/news/universitetimizin-komandasi-mehsul-sahibi-marafonununda-fina)

- Qərbi Kaspi Universitetinin tələbələrindən ibarət 3 komandası SAF 2023-ün finalına vəsiqə qazanıb.

SAF (STEAM Azerbaijan Festival) 2023 – Elm və Təshil Nazirliyinin dəstəyi ilə STEAM Azərbaycan layihəsi çərçivəsində beynəlxalq formatda təşkil edilir.

80-dən çox komandanın iştirak etdiyi müsabiqədə 16 komanda finala adlayıb. Onların 3-ü Qərbi Kaspi Universitetinin komandalarıdır.

(https://www.wcu.edu.az/az/news/komandamiz-saf-un-finalina-vesiqe-qazanib)

- Qərbi Kaspi Universitetinin Ekologiya ixtisasının tələbəsi Abbasqulu Hüseynli İtaliyanın Marina di Carrara şəhərində keçirilən WTKA Dünya

çempionatında Hap Ki Do Federasiyasının yığma komandasında çıxış edib və 1-ci yerə layiq görülüb.(https://www.wcu.edu.az/az/news/telebemiz-dunya-chempionu-olub)

- Qərbi Kaspi Universitetinin 3 komandası “Steam Azerbaijan Festivalı 2023” finalında çıxış edir.
  Komandalarımız “University Hackaton” kateqoriyasında universitetimizi təmsil edirlər. Tələbələrimiz 48 saat boyunca ideyaları üzərində işləyib və münsiflər heyətinə təqdim ediblər.
  Qeyd edək ki, Festivalın məqsədi STEAM-əsaslı təhsili təbliğ etmək, tələbələr arasında 21-ci əsr bacarıqlarını inkişaf etdirmək, yaradıcı, rəqəmsal texnologiyanı bilən tələbə və tələbələri müəyyənləşdirmək və şəbəkələşdirmək, innovasiya və rəqəmsallaşma sahəsində beynəlxalq təcrübəni araşdırmaqdır. STEAM Azərbaycan Festivalı 14 müsabiqə və 1 sərgi kateqoriyası üzrə keçiriləcək.
  (https://www.wcu.edu.az/az/news/komandamiz-steam-azerbaijan-festivali-finalinda)

- Qərbi Kaspi Universitetin “AgoraTech” komandası "SAF-2023"-də üçüncü yerə layiq görülüb.
  Qeyd edək ki, komandamızın qatıldığı Hackaton kateqoriyasında final mərhələsində yerli və bir sıra xarici ölkələrdən olmaqla 18 komanda yarışıb.
  Komandamız bürünc medal qazanıb.
  ( https://www.wcu.edu.az/az/news/komandamiz-burunc-medal-qazanib)

- Qərbi Kaspi Universitetinin Beynəlxalq turizm və ölkəşünaslıq (ingilis dili) ixtisaslaşmasının I kurs magistrantı Məryəm İsmayılova Şimali Makedoniyanın paytaxtı Skopye şəhərində təşkil olunan Azərbaycan tədqiqatları üzrə II Avropa Konfransında iştirak edib.

( https://www.wcu.edu.az/az/news/magistrantimiz-shimali-makedoniyada-teshkil-olunan-konfransd)

- Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan və Azərbaycanda fəaliyyət göstərən 3 minə yaxın könüllünün iştirak etdiyi "Azərbaycan Könüllülərinin VI Həmrəylik Forumu" keçirilib.
  Forum çərçivəsində Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə simvolik olaraq 100 Azərbaycan könüllüsü il ərzindəki fəal təşəbbüslərinə görə mükafatlandırılıblar.
  Fərqlənən gənclər arasında Qərbi Kaspi Universitetinin Aqrar sahədə ətraf mühitin mühafizəsi ixtisaslaşmasının birinci kurs magistrantı Bədriyə Əhmədova da olub. B.Əhmədova "İlin Könüllüsü" mükafatı ilə təltif edilib.( https://www.wcu.edu.az/az/news/magistrantimiz-ilin-konullusu-sechildi)

- Qərbi Kaspi Universitetinin Yüksək Texnologiyalar ve İnnovativ Mühəndislik Məktəbinin "İnformasiya texnologiyaları" ixtisasının IV kurs tələbəsi İslam Salamzadə "Heydər Əliyev adına təqaüd layiq görülüb.

  Qeyd edək ki, bu il Prezident İlham Əliyevin Sərəncamına əsasən, ali təhsil müəssisələrində bakalavriat səviyyəsində təhsil alan, təhsildə yüksək nailiyyətləri olan 100 nəfər tələbə üçün dövlət büdcəsinin vəsaiti hesabına verilən 3000 manat məbləğində "Heydər Əliyev adına təqaüd" təsis edilib.( https://www.wcu.edu.az/az/news/telebemiz-heyder-eliyev-adina-teqaud-layiq-gorulub)

- Gürcüstanın Kutaisi şəhərində Akaki Tsereli Dövlət Universitetinin ev sahibliyi etdiyi dünyanın ən böyük universitetlərarası proqramlaşdırma Olimpiadası hesab edilən ICPC-nin Open Cup turniri keçirilib. Universitetimizi təmsil edən WCU-2: "True or Force" komandası ICPC-

nin Azərbaycanda keçirilən 1/4 və 1/2 mərhələsini uğurla keçərək Open Cup Regional turnirində ölkəmizi və universitetimizi təmsil etmək hüququ qazanıb və yarışda yüksək iştirakına görə “High Achievement” sertifikatları ilə mükafatlandırılıb.
Tələbələrimiz kubokun rəsmi sponsoru Çinin məşhur şirkəti Huawei şirkəti tərəfindən təcrübə proqramına da dəvət olunub.( https://www.wcu.edu.az/az/news/universitetimizin-komandasi-dunyanin-en-boyuk-universitetler)

- Qərbi Kaspi Universitetinin Texnopark komandası “CulTech Hakatonu 2” yarışmasının QALİBİ OLDU!
  Qeyd edək ki, komandamızın qatıldığı Hakaton kateqoriyasının final mərhələsində 12 komanda 48 saat ərzində intensiv yarışıb və öz yaradıcı məhsulların təqdim ediblər.
  Komandamızın üzvləri:
  Qiyas Sadıqov
  Şöhrət Ağazadə
  Emil Dostəliyev
  Leyla Tağıyeva
  Leyla Allahverdiyeva
  (https://www.wcu.edu.az/az/news/telebelerimiz-cultech-hakatonu-yarishmasinin-qalibi-oldu)

- Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi və SUP VC şirkətinin təşkilatçılığı ilə CulTech İnkubasiya Proqramının startapları və mentorları Vyana şəhərinə işgüzar səfərə yollanıblar.
  Səfərdə Qərbi Kaspi Universitetinin Yüksək Texnologiyalar və İnnovativ Mühəndislik Məktəbinin tələbələri Leyla Tağıyeva və Leyla Allahverdiyeva CulTech sahəsində uğurlu startaplardan olan Avstriya startapı Artivive ofisində Avstriyalı İnvestorlar və Ekosistem oyunçuları qarşısında öz layihələrini təqdim ediblər.(

https://www.wcu.edu.az/az/news/qerbi-kaspi-universiteti-telebelerinin-startapi-avstriyada-i)

- Qərbi Kaspi Universitetinin tələbələrinin rəsm əsərləri Bakı Su Həftəsində sərgilənir.
  Ölkəmizdə ilk dəfə olaraq keçirilən Su Həftəsində 16 ölkədən 100-ə yaxın şirkət iştirak edir. İştirakçı şirkətlərin təmsil etdiyi ölkələr sırasına Azərbaycanla yanaşı, ABŞ, Böyük Britaniya, Almaniya, Avstriya, Belçika, Çexiya, Danimarka, İsveçrə, Avstraliya, Belarus, Gürcüstan, İsrail, Qazaxıstan, Türkiyə və Rusiya daxildir.( https://www.wcu.edu.az/az/news/telebelerimizin-resm-eserleri-baki-su-heftesinde-sergilenir)

- Qərbi Kaspi Universitetinin qızlardan ibarət voleybol komandası "Gənclik" Tələbə İdman Cəmiyyəti Respublika Şurasının təşkilatçılığı ilə ali ixtisas təhsil müəssisələrinin tələbələri arasında keçirilən turnirdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin komandasına 2:1 hesabı ilə qalib gəlib.( https://www.wcu.edu.az/az/news/qerbi-kaspi-universiteti-adpu)

- Qərbi Kaspi Universitetinin Yüksək texnologiyalar və innovativ mühəndislik məktəbinin tələbələrinin iki komandası Azərbaycan Texnologiya Universitetinin təşkilatçılığı ilə keçirilən "GreenTech" Startap və Yaşıl Texnologiyalar" müsabiqəsində iştirak edib.( https://www.wcu.edu.az/az/news/telebelerimiz-qalibler-sirasinda-id-104)

- 17 universitetin 200 tələbədən ibarət 60-dan çox komandası 5 kateqoriya üzrə mübarizə aparıb.
  "Dayanıqlı akvaponik sistem" və "Plastik səki daşları" startap layihələri ilə yarışda iştirak edən komandalarımızın hər ikisi ("İnsanlıq naminə olan

texnologiyalar" və "Robototexnika" kateqoriyaları üzrə) 3-cü yerə layiq görülüb.

Qərbi Kaspi Universitetinin qızlardan ibarət voleybol komandası "Zəfər festivalı-2" adlı ölkə çempionatında gümüş medal qazanıb.( https://www.wcu.edu.az/az/news/voleybolchu-qizlarimiz-olke-ikincisi-oldu)

- Azərbaycan Tibb Universitetinin və Bakı şəhəri Gənclər və idman idarəsinin təşkilatçılığı ilə birgə keçirilən Müstəqillik Gününə həsr olunmuş “Zəfər Festivalı-2" adlı idman festivalının mükafatlandırma mərasimi olub.
  Qərbi Kaspi Universitetinin Stolüstü tennis komandası birinci, Volleybol komandası ikinci, yerə layiq görülüb.( https://www.wcu.edu.az/az/news/tennischilerimiz-ci-voleybolchularimiz-ci-oldular)

- Qərbi Kaspi Universitetinin Yüksək Texnologiyalar və İnnovativ Mühəndislik Məktəbinin 3-cü kurs biologiya ixtisasının tələbəsi Minarə Kərimli universitetlərarası olimpiadada iştirak edib və sertifikatla təltif olunub.
  Qeyd edək ki, Bakı Dövlət Universitetin ali məktəb tələbələri arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə və BDU-nun 105 illik yubileyinə həsr olunmuş fizika, riyaziyyat, kimya, biologiya və coğrafiya fənləri üzrə respublika olimpiadasında 16 universitetdən 400-dən çox tələbə iştirak edib.( https://www.wcu.edu.az/az/news/telebemiz-teltif-olunub-id-583)

- 27-28 iyun 2024-cü ildə "Bakı Kristal Zal"da SABAH.HUB İnnovasiya Mərkəzinin dəstəyi ilə yaradılmış Azərbaycanın və regionun əsas startap innovasiya tədbiri olan "Baku ID" innovasiya festivalı keçirilib.

  "Baku ID" tədbirində 200-dən artıq yerli və xarici investorun, 100-dən çox xarici və yerli startapın, 5000 iştirakçı və 50-dən artıq tərəfdaş yer alıb.( https://www.wcu.edu.az/az/news/telebelerimiz-baku-id-innovasiya-festivalinda-layihelerini-t)

- Qərbi Kaspi Universitetinin tələbələri də lahiyələri ilə investorlarla əlaqə qurmaq, öz ideyalarını təqdim etmək və potensial şəkildə investesiya əldə etmək üçün geniş imkanlardan istifadə ediblər. Psixologiya ixtisasının tələbələri Nəzrin Mustafazadə, Şərqiyyə Əliyeva, Samirə Əliyeva, Xəyalə Talıbova "VirtuMed Academy", Politologiya ixtisası tələbəsi Sərqan Kərimov "Buddi" adlı Startup-larla çıxış edib, sertifikatlara layiq görülüblər.

- Qərbi Kaspi Universitetinin Xor kollektivi Elm və Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə qərarı ilə ali təhsil müəssisələrinin tələbələri arasında keçirilən ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş bədii yaradıcılıq müsabiqə-festivalında birinci yerə layiq görülüb.( https://www.wcu.edu.az/az/news/xor-kollektivimiz-olke-birincisi-oldu)

- "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisində Qərbi Kaspi Universiteti tələbələrinin uğurlu lahiyəsi sərgilənmişdir. ( https://www.wcu.edu.az/az/news/telebelerimizin-layihesi-adex-azerbaycan-beynelxalq-mudafie-)

- Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov "ADEX 2024" Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində Qərbi Kaspi Universitetinin stendi ilə tanış olub. Nazirə tələbələrin universitetin Texnoparkında hazırladıqları və sərgiyə çıxardıqları layihə barədə məlumat verilib. (https://www.wcu.edu.az/az/news/mudafie-naziri-adex-de-qerbi-kaspi-universitetinin-stendi-il)

- Qərbi Kaspi Universitetinin tələbələri Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş bədii yaradıcılıq festivalında mükafat alıb.

  Ali təhsil müəssisələrinin tələbələri arasında keçirilən festivalda "Xor kollektivləri" nominasiyası üzrə universitetimizin Xor kollektivi 1-ci yerə layiq görülüb. "Solo rəqs" nominasiyası üzrə isə Qərbi Kaspi Universitetinin tələbəsi Röya Paşayeva 3-cü yerin mükafatçısı olub.

  Bədii yaradıcılıq festivalı Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi və Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilib. Qeyd edək ki, bu ilin may ayında Heydər Əliyev Sarayında keçirilmiş festivalın yekun konsertində 26 ali təhsil müəssisəsinin tələbələrindən ibarət özfəaliyyət kollektivləri iştirak edib.( https://www.wcu.edu.az/az/news/xor-kollektivimiz-birinci-yere-layiq-gorulub)

- "Qarabağın Tərəqqi Naminə" İctimai Birliyi və Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə "Qarabağ və Şərqi Zəngəzurda Sərmayə İmkanları" layihəsi çərçivəsində "Karabakh GreenTech" hakatonu başa çatıb.

300-dən çox gəncin qatıldığı bu yarışmada aqrar innovasiyalar və alternativ enerji sahələrində ideyalar təqdim edilib. Onlardan 8-i növbəti mərhələyə vəsiqə qazanaraq ASAN İnnovativ İnkişaf Mərkəzində layihələrini hazırlayıb. Hakatonun 2-ci günündə isə MVP məhsullar təqdim edilib və 3 komanda qalib gəlib. Qərbi Kaspi Universitetinin ECOPIONEERS komandası qaliblər sırasında yer alıb. Komandanın tərkibi Meşəçilik ixtisasının məzunu Həsənov Eşqəli, Tərcümə ixtisasının tələbəsi Aişə Lətifova və Ekologiya ixtisasının tələbəsi Nicat Yarovdan ibarət olub. Universitetimizin digər komandası isə sertifikat ilə təltif olunub. (https://www.wcu.edu.az/az/news/karabakh-greentech-hakatonunda-qerbi-kaspi-universiteti-qali)

- Qərbi Kaspi Universitetinin tələbələri "Yaşıl Dünyanı Yarat! - ASAN İnnovativ Həllər Hakatonu 3" layihəsində iştirak edib. Layihəyə "Eco Queens" və "EnviroVision" komandaları ilə qatılan tələbələr ətraf mühitin ekoloji baxımdan mühafizəsi, işğaldan azad edilmiş ərazilərdə ekoloji sağlamlığın bərpası kimi mövzularda layihələr təqdim ediblər. (https://www.wcu.edu.az/az/news/universitetimizin-telebeleri-yashil-dunyani-yarat-layihesind)

- Qərbi Kaspi Universitetinin tələbələri 15-17 oktyabr 2024-cü il tarixlərində Bakı Ekspo Mərkəzində keçirilən 4-cü Azərbaycan Beynəlxalq Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı Sərgisində ("Rebuild Karabakh 2024") iştirak edir.Universitetimizi sözügedən sərgidə Ekologiya ixtisasının tələbəsi Xavər Əliyeva və Biologiya ixtisasının tələbəsi Jalə Mustafayeva təmsil edir. Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin stendində Qərbi Kaspi Universitetinin "BİOQAZ", "RGB Silkworm" və "TECHICA stone" layihələri sərgilənir.( https://www.wcu.edu.az/az/news/qerbi-kaspi-universiteti-rebuild-karabakh-sergisinde-layihe-)

"ASAN Könüllüləri" Təşkilatı tərəfindən həyata keçirilən layihə çərçivəsində iştirakçılar üçün Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, "ASAN xidmət", "ABAD", "İNNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi, ASAN İnnovativ İnkişaf Mərkəzi və "ASAN Könüllüləri" Təşkilatı haqqında məlumatlandırıcı tur təşkil edilib.

- Yüksək texnologiyalar və innovativ mühəndislik məktəbinin Su bioehtiyatları və akvakultura ixtisasının 4-cü kurs tələbəsi Leyla Tağıyeva, Ekologiya ixtisasının 3-cü kurs tələbəsi Xavər Əliyeva və Psixologiya kafedrasının 4-cü kurs tələbəsi Bayram Bayramov COP29 konfransında öz layihələri ilə iştirak ediblər. Tələbələrimiz 11-22 noyabr tarixləri arasında Yaşıl Zonada yerləşən Kənd Təsərrüfatı Nazirliyinin pavilyonunda "Plastik səki daşları" və "Rəngli barama" layihələrini yerli və xarici qonaqlara təqdim ediblər. (https://www.wcu.edu.az/az/news/qerbi-kaspi-universitetinin-telebeleri-cop-konfransinda-isht)

- Qərbi Kaspi Universitetinin Siyasi və ictimai elmlər məktəbinin Politologiya və Beynəlxalq münasibətlər ixtisaslarının tələbələri "Dünya ölkələrinin seçki sistemləri" V Beynəlxalq tələbə olimpiadasında iştirak ediblər. Beynəlxalq münasibətlər ixtisasında təhsil alan Fidan Hümbətova isə sertifikat ilə təltif edilib. Olmpiada MDB Parlamentlərarası Assambleyasının iştirakçısı olan dövlətlərdə Demokratiyanın, parlamentarizmin inkişafı və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi beynəlxalq institutunun təşkilatçılığı ilə keçirilib.( https://www.wcu.edu.az/az/news/qerbi-kaspi-universitetinin-telebeleri-olimpiadada-ishtirak-)

- Qərbi Kaspi Universitetində Beynəlxalq Dağlar Günü ilə bağlı "Dağlar, landşaftlar və mədəniyyətlər" adlı beynəlxalq konfransın keçirilməsində təşkilati işlər (https://www.wcu.edu.az/az/news/daglar-

biomuxteliflik-landshaftlar-ve-medeniyyetler-adli-ci-)

- Malayziya İdarəetmə və Elm Universitetinin təşkilatçılığı ilə 2–4 dekabrda Malayziyanın Selanqor ştatının Şah Alam şəhərində keçirilən “IREX IDEA Generation EXPO 2024” beynəlxalq tədbirində Qərbi Kaspi Universitetinin tələbələri gümüş medala layiq görülüblər.

Medal Qərbi Kaspi Universitetinin tələbələri Sahib Şərifli, Nağı Məmmədli və Fərid Məmmədliyə “CCRobot” ixtiralarına görə təqdim olunub. Layihə korbon qazının avtonom robotik maşınla zərərsizləşdirilməsi funksiyasını daşıyır. Tələbələr Malayziya İdarəetmə və Elm Universiteti tərəfindən sertifikatla təltif olunublar.( https://www.wcu.edu.az/az/news/qerbi-kaspi-universitetinin-telebelerine-malayziyadan-mukafa)

- Universitetlərarası voleybol turnirində WCU-nun uğuru (https://www.wcu.edu.az/az/news/qerbi-kaspi-universitetinin-voleybol-komandasi-yarishda-ikin)

- Voleybol turnirinin təltifolunma mərasimi (https://www.wcu.edu.az/az/news/qerbi-kaspi-universitetinin-voleybol-komandasi-yarishda-ikin)

- Qərbi Kaspi Universitetinin Xor kollektivi 22-24 dekabr tarixlərində keçirilən "World Harmony" VII Beynəlxalq festivalı çərçivəsində Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında çıxış edib. Müxtəlif kateqoriyalar üzrə musiqiçilərin iştirak etdiyi festivalda universitetimizin xor kollektivi 3 əsər ilə yer alıb. Klassik musiqi ilə milli folklorun təbliği məqsədilə keçirilən festivalda tələbələrimizin ifası böyük maraqla qarşılanıb. (https://www.wcu.edu.az/az/news/qerbi-kaspi-universitetinin-xor-kollektivi-beynelxalq-festiv)

Qərbi Kaspi Universitetinin tələbələri Kənd Təsərrüfatı Nazirliyində keçirilən 3-cü Aqrar Startaplar və İnnovasiyalar Forumunda iştirak ediblər. Forum çərçivəsində

universitetdə inkubasiya olunmuş “Stonica” plastik səki daşları layihəsi xüsusi diqqət çəkib. Məhsul Qərbi Kaspi Universitetinin texnoparkında istehsal edilərək Kənd Təsərrüfatı Nazirliyinin inzibati binasının həyətyanı ərazisinə döşənib. Bununla yanaşı, universitet tələbələrinin digər innovativ layihələri, “Rəngli Baramalar” və “Bioqaz” da forum çərçivəsində sərgilənərək iştirakçıların marağına səbəb olub. ( https://www.wcu.edu.az/az/news/telebelerimizin-layiheleri-kend-teserrufati-nazirliyinin-for)

Bu il yarışmada Qərbi Kaspi Universitetini Yüksək texnologiyalar və innovativ mühəndislik məktəbinin “WCU 1” komandası təmsil edib. Qorxmaz Mustafayevin rəhbərliyi ilə komandanın üzvləri, Tural Ağayev, Elnur Cəfərov və Fərid Məmmədov olimpiadada iştirak edərək sertifikata layiq görülüblər. Tural Ağayev həmin yarış üzrə individual müsabiqədə çıxış edərək xüsusi sertifikat ilə təltif olunub.( https://www.wcu.edu.az/az/news/telebelerimiz-beynelxalq-olimpiadada-ishtirak-edib)

Qərbi Kaspi Universitetinə institusional akkreditasiya şəhadətnaməsi təqdim edilib. (https://www.wcu.edu.az/az/news/qerbi-kaspi-universiteti-rehberliyine-institusional-akkredit)

- WCU-nun voleybol komandasının BMU voleybol komandası ilə yoldaşlıq yarışı keçirilib. Qərbi Kaspi Universitetinin qızlardan ibarət voleybol komandası üstünlük qazanaraq rəqibini 3:0 hesabı ilə məğlub etdi. (**https://www.wcu.edu.az/az/news/qerbi-kaspi-universitetinde-yoldashliq-yarishi-bash-tutdu**)

- WCU-da bədii yaradıcılıq müsabiqə-festivalının seçim mərhələsinin təşkil edilməsi ( **https://www.wcu.edu.az/az/news/qerbi-kaspi-universitetinde-bedii-yaradiciliq-musabiqefestiv**)

- Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutu tərəfindən 2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsi, eyni zamanda Vətən müharibəsində qələbəmizin 5-ci ildönümü münasibətilə "Bilik Yarışı" adlı intellektual və yaradıcılıq müsabiqəsi

təşkil olunmuşdur.Yarışmada ölkənin müxtəlif regionlarını təmsil edən aparıcı orta və ali təhsil müəssisələrinin komandaları iştirak etmişdir. Tədbirin əsas məqsədi gənclərin elmi biliklərini, yaradıcılıq bacarıqlarını, milli dəyərlərə bağlılıqlarını və vətənpərvərlik ruhunu nümayiş etdirmək olmuşdur.Qərbi Kaspi Universitetinin tələbələri yarışmada STEAM (Biologiya,Texnologiya, Mühəndislik və Riyaziyyat), şeir, foto və əl işləri üzrə yüksək bacarıqlarını təqdim etmiş və münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilmişdir.Yekun nəticəyə əsasən, güclü rəqabət mühitində fərqlənən **Qərbi Kaspi Universitetinin komandası yarışmada fəal iştirakına görə qalib olaraq I yerə layiq görülmüşdür**.

Bu uğur tələbələrin yaradıcılıq potensialının, komanda işinin və vətənpərvərlik ruhunun parlaq təzahürü kimi qiymətləndirilir.

( https://www.wcu.edu.az/az/news/students-of-the-western-caspian-university-won-the-knowledge)

## 2.Prosedur aspekti:

- **Prosedurlarda mütəmadi olaraq yaranan tipik çətinliklər mövcuddurmu?**

  Yaranan tipik çətinliklərə aiddir:

  1. *Qeyri-standartlaşdırılmış Qiymətləndirmə*

     Bir çox hallarda, nailiyyətlər fərqli qurumlar tərəfindən müxtəlif üsullarla qiymətləndirilir. Məsələn, akademik təhsildən kənarda əldə edilən nailiyyətlər (peşəkar təcrübə, sənaye kursları və s.) üçün standartlaşdırılmış bir qiymətləndirmə və ya sertifikatlaşdırma sistemi olmaya bilər. Bu, tanınma prosesində subyektivliyi artırır və nəticədə nailiyyətlərin bərabər və obyektiv qiymətləndirilməsi çətinləşir.

  2. *Akademik və Peşəkar Təşkilatlar Arasındakı Uyğunsuzluq*

     Akademik və qeyri-akademik sahələr arasında böyük struktural fərqlər mövcuddur. Bir çox akademik təşkilatlar, yalnız müvafiq təhsil və elmi nailiyyətləri tanıyır, halbuki bir çox peşəkar və ya sənaye sahələri tərəfindən əldə edilən nailiyyətlər bu təşkilatlar tərəfindən dəyərləndirilmir. Bu, xüsusilə qeyri-akademik nailiyyətlərin akademik mühitdə tanınmasında çətinliklər yaradır.

  3. *Beynəlxalq Tanınma Çətinlikləri*

Beynəlxalq səviyyədə nailiyyətlərin tanınması, müxtəlif ölkələrin təhsil sistemləri və müvafiq tələbləri arasında olan fərqlərdən asılı olaraq, çox vaxt çətinliklər yaradır. Məsələn, bir ölkədə müvafiq hesab edilən bir nailiyyət, digər ölkədə tanınmaya bilər, çünki hər ölkənin təhsil və peşə standartları fərqlidir. Bu, xüsusən təhsil, diplomlar və peşə sertifikatları ilə əlaqəli məsələlərdə özünü göstərir.

4. *Nailiyyətlərin Düzgün Sənədləşdirilməməsi*

Bəzi hallarda, nailiyyətlər düzgün sənədləşdirilməmiş və ya qeyri-dəqiq şəkildə qeyd olunmuş ola bilər. Bu, qeyri-akademik mühitlərdə xüsusilə daha çox rast gəlinir, çünki müvafiq nailiyyətlərin və fəaliyyətlərin qeydiyyatı və təsdiqlənməsi məsələsi tez-tez qeyri-rəsmi şəkildə aparılır. Bu, nailiyyətlərin tanınmasını çətinləşdirə və ya mümkünsüz edə bilər.

5.*Ədalətsiz və Subyektiv Dəyərləndirmə*

Bəzi hallarda, nailiyyətlərin tanınması zamanı qiymətləndirmə və dəyərləndirmə prosesləri subyektiv olur. Qiymətləndirməni həyata keçirən şəxslərin şəxsi münasibətləri, əvvəlki təcrübələri və ya təşkilatın xüsusi tələbləri nəticəsində bəzən obyektivlikdən uzaq nəticələr yaranır. Bu, bərabərsizlik və ədalətsizlik hissi yarada bilər.

6. *. Tanıma Qayda və Prosedurlarının Mürəkkəbliyi*

Bir çox hallarda nailiyyətlərin tanınması üçün mövcud qaydalar çox mürəkkəb və uzunmüddətli ola bilər. Bu prosedurların başa çatdırılması çox vaxt aydın deyil və çoxsaylı mərhələlərdən ibarət olur. Bu, həm zaman itkisinin, həm də resursların sərf olunmasına səbəb olur və bəzi insanlar və təşkilatlar üçün narahatlıq yaradır.

*7. Resurs və Əməkdaşlıq Çatışmazlıqları*

Təşkilatlar arasında effektiv əməkdaşlıq və resursların mübadiləsi olmadan nailiyyətlərin tanınması prosesi çox vaxt qeyri-kafi ola bilər. Məsələn, təhsil və iş dünyası arasında qarşılıqlı əməkdaşlıq və əlaqə olmadan, hər iki tərəf də nailiyyətləri tam olaraq və düzgün şəkildə tanımaya bilər.

*8. Texnoloji Çətinliklər*

Nailiyyətlərin tanınması prosesində bəzən texnoloji vasitələrdən istifadə olunur (məsələn, onlayn platformalar, məlumat bazaları və s.). Lakin, bu texnoloji sistemlər mükəmməl olmayıb və məlumatların səhv və ya gecikmiş şəkildə ötürülməsi, uyğun olmayan proqram təminatı və ya texniki səhvlər prosedurun düzgünlüyünü və sürətini poza bilər.

*9. Dəyişən Standartlar və Tələblər*

Dövlətlər və ya təşkilatlar zamanla yeni standartlar və tələblər müəyyənləşdirə bilər. Bu, xüsusən yeni texnologiyalar və metodologiyaların inkişafı ilə əlaqədar olaraq meydana gələ bilər. Əgər bu dəyişikliklər lazımi şəkildə tətbiq olunmazsa, əvvəlki nailiyyətlər müvafiq dəyərləndirməyə uyğun olmaya bilər və tanınma çətinləşə bilər.

*10. Daxili Təşkilat Dəyişiklikləri və Təşviq Sistemi*

Bəzi təşkilatlar, nailiyyətləri tanımaq üçün daxili struktur dəyişiklikləri və ya təşviq sistemləri qurmağı unuda bilər. Məsələn, təşkilat dəyişiklikləri, yeni idarəetmə və ya daxili siyasətlər nəticəsində əvvəlki nailiyyətlərin tanınması pozula bilər, çünki yeni rəhbərlik və ya yeni sistemlər əvvəlki nailiyyətləri gözardı edə bilər.

**3.Mədəniyyət ölçüsü:**

- **Hansı dəyişikliklər planlaşdırılır və hansı səbəblərə görə?**
  - Təcrübə əsaslı və qeyri-formal öyrənmənin tanınması
  - *Dəyişiklik*: Formal təhsildən kənarda – iş yerində, könüllü fəaliyyətlərdə, kurslarda və ya şəxsi öyrənmədə əldə edilən bilik və bacarıqların rəsmiləşdirilməsi.
  - *Səbəb*: Bir çox insan bacarıq və biliklərini təhsil müəssisələrindən kənarda qazanır, lakin bunlar sənədlə təsdiqlənmədiyi üçün tanınmır.
  - Beynəlxalq tanınma mexanizmlərinin gücləndirilməsi
  - *Dəyişiklik*: Xarici diplomlar, sertifikatlar və təcrübələrin tanınmasında vahid beynəlxalq mexanizmlərin tətbiqi (məsələn, Lissabon Konvensiyası).

- *Səbəb*: Təhsil alanların və peşəkarların ölkələrarası mobilliyini artırmaq, miqrasiya və əmək bazarına daxilolmanı asanlaşdırmaq.
- İşəgötürənlərlə əməkdaşlığın gücləndirilməsi
- *Dəyişiklik:* İşəgötürənlərin nailiyyətlərin tanınması prosesinə daha çox cəlb olunması.
- *Səbəb:* Əmək bazarına uyğun bacarıqların və biliklərin müəyyən olunması və tanınmasının təşviqi.

- **Xarici nailiyyətlərin tanınması üçün hansı əsas prinsiplər mövcuddur? Universitetin Auditoriyadan kənar işlər üzrə şöbəsinin əsasnaməsinə uyğun prinsiplər əsasında işləyir. (file:///C:/Users/Elnure/Desktop/Auditoriyuadan%20k/AK%C4%B0%20%20%C5%9E%C3%B6b%C9%99nin%20%20%C6%8FSASNAM%C6%8FS%C4%B0.pdf)**

- Tanınma proseslərinin daha effektiv olması üçün daha yaxşı tənzimləmə, aydın qaydalar və güclü əməkdaşlıq strukturlarının yaradılması vacibdir.
- Mediya mərkəzi tərəfindən daima yeni xəbərlərin saytda və sosial şəbəkələrdə işıqlandırılması.

- **Təsisatın müvafiq üzvləri, maraqlı tələbələr və müəllim heyəti bu prinsiplər barədə məlumatlandırılıbmı və bunları qəbul edirlərmi?**
- Tələbə təşkilatlarının üzvləri, könüllülər və mentorlar adətən bu xidmətləri tanıyır və başqalarına da təklif edir.
- Sosial mediada aktiv olan tələbələr daha çox məlumatlıdır.

- Əsasən passiv və çəkingən tələbələr bu prinsiplərdən və imkanlardan xəbərsiz qalır.

- Bəzi müəllimlər və məsləhətçilər bu xidmətlərdən xəbərdardır və tələbələri istiqamətləndirir. Lakin hər müəllim eyni səviyyədə məlumatlı deyil.

**Bunları Qəbul Edirlərmi?**

Bəli, amma bəzi şərtlərlə:

Əgər məlumat düzgün çatdırılıbsa və xidmətlər real nəticə verirsə, əksər tərəflər bu prinsipləri qəbul edir.

Əgər proses formal, passiv və ya qaranlıq qalırsa, o zaman qəbul səviyyəsi aşağı olur.